# TÜRK MİFOLOJİ DÜŞÜNCƏSİNDƏ DÜNYANIN YARADILIŞI (MONOMİFOLOJI BAXIMDAN XAOS-KOSMOS)

## Model of Occurrence of Space From Chaos in Turkic Mythological Thought (The Chaos in the Context of Monomythology)

**Səfa Qarayev AMEA***

***Özet:*** *Türk mitoloji düşüncesinde dünyanın yaratılışı (monomitoloji açıdan kaos – kosmos). Makalede türk mitoloji düşüncesinde kaostan uzaya türeyiş araştırılmıştır. Diğer mitoloji sistemlerde olduğu gibi türk mitoloji sisteminde de dünya kaos şeklinde tasvir olunuyor. Daha sonra bu düzenli bir dünyaya dönüşüyor.*
***Anahtar kelimeler****: mit, türk mitolojisinde dünyanın yaratılışı, monomit, kaos, kosmos.*

***Abstract:*** *In the article is investigated transition from chaos to space in Turkic mythology. It is underlined, that, as well as in other mythological systems, in Turkic mythology the world originally as consisted of chaos. Subsequently this condition has been replaced by space order.*
***Key words:*** *myth, Turkic mythological thought, chaos, monomythology, cosmos*

Məlum olduğu kimi, mif termini elmdə əsasən iki mənada başa düşülür:

1) Mif şüur tipi kimi

2) Mif mətn kimi.

Şüur tipi kimi "mif toplum üçün davranış modelidir"(1). Bu mənada mif ibtidai mədəniyyətdə reallıq idi. Amma bu reallıq "destruktiv reallıq idi". (Alan Dandes bu termini mifolji şüur faktına bu günün prizmasından yanaşarkən işlədir). Yəni mifoloji şurla yaşayanlar üçün bu şüurdan kənar heç nə yox idi. Dünyanın - kosmoqoniyanın dərki yalnız bu şüur müstəvisində mümkün olurdu.

* Folklor İnstitutu

Bəllidir ki, “mifin mübahisəsiz qəbul olunan finksiyasından biri də kinatın kosmoslaşdırılmasıdır. Bundan əlavə demək lazımdır ki, kaintaın kosmoslaşdırılması mifoloji dixotomiya – “biz və onlar vasitəsi ilə baş verir”(2). Mifoloji şüurun əsasını kainat və onunla bağlı olan düşüncələr təşkil edir. Bunun nəticəsində də əlimizdə olan mioloji mətnlərin demək olar ki, hamısında dünyanının yaranmsı - xaosdan – kosmosa keçid barədə düşüncələr əks olunmuşdur. Bununla bağlı mifoloq C. Məmmədov yazır: “Hər hansı mifoloji sistemin özülündə dayanan kosmoqonik miflərdə, yaradılış aktı, dünyanın necə yaranması təsvir olunur. Bütün etnik mədəni sistemlərdə, etnosların yaratdıqları kosmoqonik miflərdə bir ilkin baçlanğıc kimi xaos götürülmüşdür. Bir etnos üçün həmin başlanğıc boşluq olmuş, digər biri üçün qaranlıq zülmət, bir başqa ənənə üçün isə strukturyaradıcı sayılan su olmuşdur. İlkin su xaosla eyniləşdirilir”(3, 81).

Dünyanın sonu barədə olan düşüncələr isə esxotoloji miflərdə öz əkini tapmışdır. Amma kosmosun xaosdan törəməsini ifadə dən hər bir mətn aid olduğu etnosun düşüncələrinin spesifikasını da əks etdirməmiş deyildir. Yəni hər bir mifologiyada dünyanın yaranmasına təkan həmin xalqın mifolji şüurunda olan tanrılar tərəfindən edilir. Demək olar ki, bütün mifologiyalarda xaosdan kosmosun törəyişi tanrıların iradəsi ilə həyata keçirilir.

Türk mifogiyasında xaos kimi su təvir olunur. Bu zaman yaradandan başqa heç bir varlğın olmaması vurğulanır. Türk mifolgiyasında xaosdan kosmik nizama keçidi təsvir edən ən bütöv və bitkin məlumatlar Yakut və Altay mifologiyasında əks olunmuşdur. Verbitskinin topladığı Altay yaradılış dastanlarında bu mənzərə belə tsvir olunur:

Dünya bir dəniz idi nə bir yer var idi, nə bir göy
Ucsuz-bucaqsız, sonsuz sular içrəydi hər şey.
Tanrı Ülgen uçurdu, yoxdu bir yer qonmağa,
Uçurdu, axtarırdı bərk bir yer, sığınmağa. (5, 228).

Göründüyü kimi, bu infomasiyada kainatın, kosmik nizamın mövcudluğundan əvvəliki vəziyyət bütöv su şəkilində təsvir olunur. Həmin informasiya kiçik fərqlərlə Radlovun topladlğı Altay yaradılış dastanında əks olnmuşdur:

Yerin yer olduğu vaxt suyla doluydu hər yer,
Nə göy vardı, nə də ay, nə günəş, nə də bir yer.

Radlov tərəfindən toplanılan Altay yaradılış dastanının bu semiotik mahiyyəti türk mifolgiyasında xaos təsviri ilə bağlı məlumatımızı dərinləşdirməyə imkan verir. Ümumiyyətlə, burada dünyanın başdan-başa su olması yerin, torpağın olmaması göstərilməklə yanaşı günəş və ayın olmaması da təsvir olunur. Bax bu informasiyasnın semantik məzmunu bizə görə türk mifoloji düşüncəsində xaosun eyni zamanda qaranlıq, zümətdən ibarət olmasına işarə edir. Yəni yeni yaradılış ilə sudan (dəryadan) torpağın (yerin), qaranlıqdan işığın (bu mətndə Günəşin) yaradılmasına işarə edilir. Əslində, bu yeni yaradılış qarşıdurmanın, oppozisiyanın doğulmasıdır: sudan-torpaq, qaranlıqdan-işıq. Amma bəzən dini dünya görüşünün təsiri ilə dünyanın yaradılışdan əvvəlki vəziyyəti barədə olan informasiyada belə yaradılış aktı əvvəlki vəziyyəti, şəraiti bərpa etməyə imkan verir. Məsələn, Mikayıl Baştunun "Şan qızı" dastanında yaradılış aktı belə təsvir olunur:

Hələ Yer üzündə insanların olmadığı
Əski zamanlarda
Uca tanrı
Alp-Divləri yaratmış
Əvvəl üst alpları
Günəş və Ayı yaratmış
Sonra digər
Alp-divləri yaratmış (5, 412).

Göründüyü kimi, burada yaradılışdan əvvəlki vəziyyət təsvir olunmasa belə Günəş və Ayın yaradılması onun digər oppozisiyasının qaranlıq, zülmət olması təsəvvürünü yaradır. Belə ki, yuxarıda dediyimiz kimi, xaosdan kosmosun yaranması elə oppozisiyanın doğmasıdır. Əgər Günəş yaradılıbsa, bu hökmən oppozisiyanın bir tərəfi kimi meydana çıxmalıdır. Günəşə - isti, həm su (soyuqluq semantikası ilə əlaqədar) həm də qaranlıq oppozisiyanın bir tərəfini təşkil edə bilər. Deməli, türklərdə xaosun həm su, həm də qaranlıq zülmət ilə işarələnməsi qənaətinə gələ bilərik.

Azərbaycan ərazisindən toplanmış mətnlərdə də dünyanın sudan yaranmasına işarə vardır. Mətnlərdən birində deyilir: "Lap qabaxlar Allahdan başqa heç kim yox imiş. Yer üzü də başdan ayağa su imiş. Allah bu suyu lil eləyir. Sonra bu lili qurudub torpaq eləyir. Sonra torpaqdan bitkiləri cücərdir. Ondan sonra da torpaqdan palçıq qayırıb insanları yaradır" (7, 26).

Dünya xalqlarında, həmçinin türk xalqları içərisində dünya daşqını ilə bağlı inamlar yaşamaqdadır. Azərbaycan ərazisindən tolanmış bir çox rəvayətlərdə dünya daşqınından bəhs olunur. Ceyms Corc Freyzer bu faktın dünyanın bir-birindən uzaq bir çox xalqlarında təxminən oxşar olmasının səbəbinin iki nəzəriyyə

ilə izah oluna biləcəyini vurğulayır: 1) qarşılıqlı əlaqə 2) müstəqil (8, 65). Biz görə, xaosdan (boşluq və sudan) kosmosun yaranması daha sonra yenidən su (daşqın vasitəsi ilə) vasitəsi ilə xaosa dönməsi arxetip şüur müstəvisində izah olunmalıdır.

Karl Qustav Yunq Maks Millerin görüşlərini təhlil edərkən ondan belə bir sitat gətirir: "Xatırlatmaq maraqlı olardı ki, Aneksaqor xaosdan kosmosun meydana gəlməsini tufan vasitəsi ilə izah edir, amma ümumiyyətlə, bunun səssiz baş vermədiyini də unutmaq olmaz" (9, 415).

Mifoloji mətnlərə nəzər salanda aydın olur ki, kosmik nizamı hərəkət və səs yaratdığı kimi, onun sonunun çatdığını da elə həmin təsvirlər müşayət edir. Dünyanın sonunun çatdığını göstərən İsrafilin suru çalınması, tufan nəticəsində yer üzünü su alması faktı bizcə elə xaos-kosmos-xaosa çevrilmə modelinin vahidliyindən xəbər verir.

**Monomif baxımından xaos və kosmos.**

Miriçe Eliade "Əbədi dönüş mifi" adlı əsərində insanın göyü müşahidə edərək oradakı qanunauyğunluqları öz yaşantısında təkrar etdiyi qənaətinə gəlmiş və bu məsələyə belə münasibət bildirmişdir: "Yaşadığımız dünya bir göksel dünyaya tekabül eder. Aşağıda uygulanan her edimin bir de yukarıda, asıl gerçekliği temsil eden göksel bir karşılığı bulunmaktadır". Və alimin fikirinə görə insanlar arsında baş verən bütün davranışların göydə prototipi vardır. (6, 23-24) Göründüyü kimi alim cəmiyyətdə baş verən hadisələrə göyün "səma" qanunauyğunluqlarının proyeksiyası kimi baxmışdır. Əslində bu məsələ sadəcə müşahidə olunmaqla proyeksiyalandığı qənaətinə gəlmək düzgün olmaz. Bu proyeksiyalanma müşahidə edib təkrar modelləşdirmə kimi deyil, üzvi bağlılıq kontekstində izah olunmalıdır. Kosmoqoniyanın bir vahdi olan insan üzvi şəkildə bağlı olduğu bütövün qanunauyğunluqlarını imitasiya etmir əslində yaşdır. Başqa sözlə, insanın öz həyatı, bütün səviyyələrdə bəşəriyyətin həyatına bənzəmir onun bir hissəsi kimi onun qanunauyğunluqlarını daşıyır. Bu zaman "müşahidə"dən daha dərin məna kəsb edən "daşıyıcılıq" semanteminə üstünlük verilməlidir. Təsadüfi deyildir ki, K. Q. Yunq dünyaya gələn insanın ənənəvi obrazlarla doğulduğunu irəli sürməklə C. Lokkun "ağ lövhə" nəzəriyyəsində irəli sürülən müddüəaları inkar etmiş oldu. Yunq insanın təmiz, ağ lövhə kimi dünyaya gəlməsinə münasibət bildirərkən bildirir ki, insanın bütün ruhunun kənardan verilməsini, onun ağ kağız kimi dünyaya gəlməsini idia etmək yanlış bir fikirdir çünki normal şəraitdə insan psixikası tam şəkildə nizamda ortaya çıxır (10). Bu nizamın da konkret olaraq arxetiplər olaraq ortaya çıxdığını isə o müxtəlif əsərlərində dönədönə vurğulamışdır. Beləliklə insanın davranışlarının səma hadisələrinə uyğun gəlməsi məsələsinin əsas mahiyyəti arxetiplər

nəzəriyyəsi kontekstində izah olunmalıdır. İnsan təbiətə üzvü sürətdə bağlı olmaqla onun fizialoji həyatı, həmin qanunauyğunluqların daşıyıcısı olduğu kimi onun psixologiyası da həmin ritimlərə uyğundur. Bu zaman səma qanunauyğunluqları kollektiv təhtəlşüur faktı kimi ortaya çıxır. Beləliklə hər bir insan özündən asılı olmayaraq səma və ya təbiət qanunauyğunluqlarının daşıycısı kimi ortaya çıxır. Bu qanunauyğunluq hər dəfə fərdi şüur müşahidəsi məsulu kimi deyil ritim olaraq özünü büruzə verməklə bütün insan psixologiyasın mahiyyətinə çevrilmişdir. Təsadüfi deyildir ki, bu təbiət qanunauyğunluğunun ümumi modeli bütün yaradıcılığım mahiyyətinə hopmuş və bu da öz növbəsində tədqiqatçıların diqqətindən yayınmamış və bu monomif modelinin törədicisi kimi izah olunmuşdur: "Həyatın təkrarlanması olaraq görünən monomif Günəşin və dünyanın orbit üzrə hərəkətlərindən qaynaqlanan mövsümlərin müşahidə edilməsi ilə inkişaf etmiş, bitkilərin və dolayısı ilə insanoğlunun yenidən doğumunu işarələyən bahar gəncliyə, yaz yetkinliyə, payız qocalığa və enişə, qış isə ölümə ekvivalent mövqeyə gəlmişdir." (4, 65) Göründüyü kimi burada da insan və təbiət arasında olan oxşarlıq diqqət önünə gətirilmişdir. Beləliklə monomif kəmiyyətinə baxmayraq bütün məzmunlarda olan eyni modeli ifadə edir. Bu model Joseph Campbell tərəfində irəli sürülmüşdür. Folklorda olan bu modeli Campbel "Qəhrəmanın sonsuz yolçuluğu" (əsərin orjinalda adı "*The Hero with A Thousand Faces*" – "Min üzlü qəhrəman") adlı əsərində kitabının ayrı-ayrı üç bölümündə belə ifadə edir:

YOLA ÇIXMAQ- bu hissə öz növbəsində aşağıdakı yarımbaşlıqları özündə ehtiva edir:

1. Macəraya çağırış.
2. Çağırışın rəddedilməsi
3. İlahi yardım
4. İlk sınağın keçilməsi
5. Balinanın qarnı

YETKİNLƏŞMƏ

1. Sınaqlar yolu
2. Tanrıçayla qarşılaşma
3. Başdançıxardıcı qadın
4. Atanın könlünü alma

5. Tanrılaşdırma

6. Ən son mükafat

DÖNÜŞ

1. Dönüşün rəddedilməsi

2. Sehirli qaçış

3. Kənardan gələn qurtuluş

4. Dönüş sınağının keçilməsi.

5. İki dünyanın ustası

6. Yaşama azadlığı (7)

Belə ki, Campbell xalq söyləmərində olan mifoloji macəranın ayrılma-yetkinləşmə-dönüş kimi əsas üç mərhələni özündə ehtiva etməklə monomif yaratması fikirini irəli sürmüşdür. Digər bütün macəralar bu monomifin bu və ya digər dərəcədə genişlənməsindən ortaya çıxmışdır.

Biz bu xüsusiyyəti dünyayanın qanunauyğunluqlarını ifadə edən xaos-kosmos-xaos modelində də görə bilərik. Əslində dünya bir obraz kimi Campbellin irəli sürdüyü üç mərhələ çərçivəsində xaos-kosmos yenidən xaosa dönmə kimi üç mərhələdə öz mövcudluğunu yaşadır. Bu keçidlərin hər biri müəyyə inisiasiya mərasimləri ilə reallaşır. Monomifin təkib hissəsi kimi xaosdan kosmosa keçid və yenidən xaosa dönmə modeli makro fakt üçün keçərli olduğu kimi, onun tərkib hissəsi olan mikrofakt üçün də keçərlidir. Çünki bu model düşüncədə mövcudolama modelidir. O heç nədən kənarda olmadığı kimi, ondan da kənarda heç nə yoxdur. Fikirmizi konkret nümunə əsasında sübut edək. Dünya – makromodel, İnsan- mikromodel. İnsan dünya daxilində reallaşır. Dünyanın özü də xaos-kosmos-xaos modeli ilə yaşayır onun faktı olan insan da.

- Xaosdan kosmosun yaranmasını ifadə edən mətnlərədə dünyanın sudan, sonsuz qaranlıqdan yaranması və nizamlı şəkilə düşməsi daha sonra yenidən bir səbəblə əbədi suya və qaranlığa qərq olacağından bəhs edilir.

- İnsanın (folklorda qəhrəmanın) doğulması xaosdan kosmosa keçməni, ölümü isə yenidən xaosa qayıtmanı işarələyir

- İnsanın canlı həyatı (bu keyfiyyət mifoloji obazlarla da bağlıdır) xaos-kosmos-xoas keçidlərindən ibarətdir. İnsan müxtəlif rituallar vasitəsilə bu dünyalar

arasında hərəkət edir. Məsələn, qəhrəmanın adı yoxdur bu onun xaos dünyasında olmasına işarədir. Ad almaq ilə cəmiyyətdə öz yerini təyin etmiş olur və Kosmosa keçir. Sonrada mifoloji qəhrəmanın zindana düşməsi və ya divlər məmləkətinə getməsi ilə yenidən xaos ortaya çıxır. Onun oradan çıxması ilə yenidən kosmik nizam bərpa olunur.

Göründüyü kimi, xaos-kosmos-xaos, monomif modelinə uyğun olmaqla makro və mikro modelin bütövlükdə hərəkətverici qüvvəsidir. Bu şüurda var olma modelidir. Düşüncənin makro modeli (dünya) mikro modeli (insan) və onun tərkibinə daxil olan bütün faktlar bu qanunauyğunluq çərçivəsində mövcud olurlar.

## ƏDƏBİYYAT

**1.** Кабо В. Символика первобытного обряда и мифа. aboriginals. narod. ru/cc15. htm

**2.** Юлия Чернявская Идентичность на фоне мифа. anthropologie. kunstkamera. ru/files/pdf/008/08_03_cherniavskaya_k. pdf

**3.** Bəydili C. Xaos anlayışı mifologiyada. Ortaq türk keçmişindən Ortaq türk gələcəyinə II Uluslararası Folklor Konfransının materialları, 407 s.

**4.** Burrows, J. David, Frederic R. Lapides and John T. Shawcross. Myths and Motifs in Literature. NY: The Free Press 1973, 496

**5.** Bahəddin Ögəl Türk mifologiyası. I cild, Bakı, "MBM", 2006, 626 s.

**6.** Eliade Mircea, Ebedi Dönüş Mitosu, İmge Yay. Ankara 1994, 189 s

**7.** Campbell, Joseph, Kahramanın Sonsuz Yolculuğu, Kabalcı Yay. İstanbul 2000, 465

**8.** Baştu M. Şan Kızı Destanı. İstanbul, Acar Matbaacılık A. Ş. 1991, 412 s.

**9.** Əsatirlər, əfsanə və rəvayətlər. Bakı, Şərq- Qərb, 2005, 304 s.

**10.** Фрезер Дж. Дж. Фолъклор в ветхом завете. Москва, Издательство политический литература, 1985, 511 стр.

**11.** Юнг К. Г. Либидо, его метаморфоз и символы. Восточно-Европейский Институт Психоанализа Санкт-Петербург. S.63 415).

**12.** Юнг К. Г. Об архетипе Трикспера http: // majorov. ru/analytical-psychologhy/ trickster/6/